Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuş, bir sıra mühüm siyasi və iqtisadi islahatlara başlanmışdır.

İlham ƏLİYEV
Azərbaycan Respublikasının Prezidenti

Zaman xalqın müdrik seçiminin düzgünlüyünü dönə-dönə təsdiqləyib

Azərbaycanın müasir tarixində elə günlər var ki, ölkənin və xalqın gələcək taleyinin müəyyən edilməsində önəmli rolu ilə xüsusi seçilir. Belə əlamətdar və tarixi günlərdən biri də 3 oktyabr 1993-cü ildə keçirilmiş prezident seçkiləridir. Məhz həmin gün ümummilli lider Heydər Əliyev xalqın mütləq əksəriyyətinin səsini qazanaraq Azərbaycan Respublikasının Prezidenti seçildi. Bir həftə sonra xalq qarşısında Konstitusiya və müqəddəs kitabımız "Quran"a əl basaraq təntənəli surətdə and içən ulu öndər müstəqil dövlətimizin başçısı kimi tarixi xilaskarlıq və quruculuq missiyasını daha geniş səlahiyyətlə davam etdirməyə başladı.

İsmayıl HACIYEV,
AMEA Naxçıvan Bölməsinin sədri, akademik

Bu doğru və ədalətli seçimdən sonra xalq ölkənin taleyinin ən mötəbər əllərdə olduğunu yəqin etdi, onun gələcəyə olan ümidləri artdı. Buna qədər xalqımız dalbadal çətin vəziyyətlərə düşmüş, dərin sarsıntı və məhrumiyyətlərə məruz qalmışdı. Səriştəsiz və naşı başçıların xəyanətkarlığı ucbatından respublikamızda hökm sürən xaos, anarxiya dövlət müstəqilliyinin ilk aylarında və illərində daha da dərinləşmiş, nəhayət, silahlı qarşıdurmaya çevrilmişdi. AXC–Müsavat hakimiyyətinin məsuliyyətsizliyindən və bacarıqsızlığından irəli gələn siyasi və hərbi böhran şəraitində müstəqil respublikamız məhvolma təhlükəsi ilə üzləşmişdi.

Düşmən təcavüzünə məruz qalan ölkənin daxilində vətəndaş müharibəsi alovlanırdı. Qardaş-qardaşa qarşı çıxmışdı. Hakimiyyətdə olan AXC–Müsavat rəhbərləri isə xalqı və müstəqilliyimizi düçar etdikləri təhlükələrdən xilas etmək əvəzinə, başçılarını itirib xalqın hiddəti qarşısında vəzifələrdən istefa verdilər. Belə bir çətin və ağır məqamda xalq bir daha müdriklik göstərərək yeganə xilaskarına– ümummilli lider, dünya şöhrətli siyasət və dövlət xadimi Heydər Əliyevə müraciət etdi. Bu dövrdə yaranmış vəziyyəti hansı formada araşdırsaq görərik ki, bu son dərəcə düzgün və yeganə ağıllı qərar idi. Çünki ikinci bir şəxs yox idi ki, Azərbaycanı qarşılaşdığı fəlakətlərdən xilas edə bilsin.

Ulu öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı və iyunun 15-də Ali Sovetə sədr seçilməsi xalqımızın tarixində yeni eranın təməli olmaqla, Qurtuluş məqamına və sonrakı illərdə, haqlı olaraq, ölkəmizdə Qurtuluş bayramına çevrildi. Təxirəsalınmaz tədbirlərlə böhranı ram edən, xalqın arzu və etimadı ilə 3 ay sonra Azərbaycan Respublikasının Prezidenti seçilən ulu öndərimiz 1993-cü ilin 10 oktyabrında dövlət və xalq qarşısında sədaqət andı içərək Azərbaycanı dəhşətli bəlalardan, faciələrdən hifz etdi, ölkəmizi sabitlik, iqtisadi inkişaf və tərəqqi yoluna çıxardı, Vətənə həqiqi övladlıq borcunun əyani nümunəsini göstərdi.

Siyasi baxışlarından və dünyagörüşündən asılı olmayaraq hər bir Azərbaycan vətəndaşı başa düşür ki, əgər o zaman ümummilli lider Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsəydi, Azərbaycan xalqının taleyi fəlakətli olacaqdı. Məhz ulu öndərin şəxsiyyəti, yüksək səviyyəli idarəçilik bacarığı, qətiyyəti və xarizması respublikada yaranmış ağır böhranın tamamilə aradan qaldırılmasına imkan verdi. Elə bunun nəticəsi idi ki, ulu öndər 1998-ci ildə yenidən müstəqil Azərbaycanın Prezidenti seçildi.

Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycan dövlətinin başçısı seçilməsinin tarixi-siyasi əhəmiyyətini qeyd edərək demişdir: "Müstəqilliyimizin tarixində 1993-cü il müstəsna əhəmiyyətə malikdir. O zaman, mürəkkəb durumda xalqımız çox müdrik və tarixi bir seçim etmiş, Heydər Əliyevi ölkənin Prezidenti seçmişdir. Böyük nüfuza və şöhrətə malik olan bu siyasi xadim Azərbaycanda inkişafın təməlini qoymuş, bir sıra mühüm siyasi və iqtisadi islahatlara başlanmışdır".

Qüdrətli dövlət xadimi Heydər Əliyevin müstəqil Azərbaycan Respublikasına rəhbərlik etdiyi sonrakı 10 ildə (1993--2003) gördüyü misilsiz işlər respublikamızı çox qısa müddətdə iqtisadi və siyasi böhrandan xilas etdi, Azərbaycanı beynəlxalq arenada böyük nüfuza və söz sahibinə çevirdi. Ulu öndər respublikamızın üzləşdiyi problemləri, qarşılaşdığı çətinlikləri, daxili və xarici vəziyyətinin ağırlığını və bunlardan çıxış yollarını çox yaxşı bilirdi.

Həqiqi xalq lideri Azərbaycanı düşdüyü vəziyyətdən xilas etmək üçün məhz xalqımızın müdrikliyinə və onun öz rəhbərinə bəsləndiyi inam və ümidlərə arxalanırdı. Andiçmə mərasimindəki parlaq nitqində ulu öndər Heydər Əliyev bu həqiqəti belə dəyərləndirmişdi: "Belə bir yüksək məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəni üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".

Ümummilli liderin qarşıya qoyduğu ümdə vəzifələrdən biri də milli dövlət quruculuğunu həyata keçirmək idi. Bunun üçün Azərbaycanda ictimai-siyasi sabitlik bərpa edilməli idi. Ulu öndər bu istiqamətdə əsaslı tədbirlər hazırlayıb həyata keçirdi. Cənub bölgəsində baş verən hadisələrin, dövlət çevrilişlərinin qarşısı qətiyyətlə alındı, ölkəmiz sabitliyə, əmin-amanlığa qovuşdu. Respublikamızda dövlət quruculuğunun hüquqi, qanuni əsaslarının yaradılmasına başlandı.

Görkəmli siyasətçi Heydər Əliyevin zəngin idarəetmə təcrübəsi və şəxsiyyətinin əzəməti imkan verirdi ki, o, qarşılaşdığı böhranlı vəziyyətdən öz xalqını uğurla çıxarsın. Təcrübəli dövlət xadimi yaxşı dərk edirdi ki, nizam-intizamlı və güclü ordu yaratmadan Ermənistanın torpaqlarımıza təcavüzünün qarşısını almaq mümkün olmayacaq. Odur ki, ulu öndər hakimiyyətə qayıdışından dərhal sonra bu məsələyə ən zəruri vəzifə, prioritet kimi yanaşmağa, böyük diqqət ayırmağa başladı.

Ümummilli lider Heydər Əliyev andiçmə mərasimindəki nitqində bu barədə danışaraq demişdir: "Azərbaycan Respublikası bir müstəqil dövlət kimi özünü müdafiə etməyə qadir orduya malik olmalıdır. Təəssüf ki, müstəqillik əldə ediləndən sonra keçən dövrdə bu sahədə az iş görülübdür. Lazım gələrsə, sülh yolunda addımlarımız nəticə verməsə, Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün, respublikanı müdafiə etmək qüdrətli bir ordunun yaradılması bizim əsas vəzifəmizdir".

Ulu öndər Prezident kimi fəaliyyətə başlayanda Azərbaycan ordusu bərbad vəziyyətdə idi, parçalanmışdı, hərbi hissələr ayrı-ayrı siyasi qrupların təsiri altına düşmüşdü. Müdafiə Nazirliyinə tabe olmayan, müxtəlif siyasi ambisiyalı, döyüş qabiliyyəti aşağı olan, nizam-intizamsız hərbi hissələri ləğv etmək, güclü ordu yaratmaq lazım idi. Prezident Heydər Əliyevin müvafiq fərmanı ilə 1993-cü il noyabrın 1-də Dövlət Müdafiə Şurası yaradıldı, həmin gün bu qurumun ilk iclası keçirildi, müvafiq qərarlar qəbul edildi. Ali Baş Komandan Heydər Əliyev sabahısı gün televiziya və radio vasitəsilə xalqa müraciət etdi, onu ölkənin ərazi bütövlüyünün qorunması və azadlığı uğrunda birləşib düşmənə qarşı mübarizəyə qalxmağa çağırdı.

Prezident çağırışı xalqı hərəkətə gətirdi, orduya könüllü yazılanların sayı minlərlə idi. Noyabrın 23-də Milli Şura "Müdafiə haqqında" Qanun qəbul etdi. Noyabr-dekabr aylarında 16,7 min döyüşçüsü olan 40 ehtiyat taboru təşkil edildi. 1993-cü ilin sonunda nizami ordunun sıralarında 54 min əsgər və zabit var idi. Azərbaycan Ordusu tezliklə düşmənin respublikanın içərilərinə doğru hücumunu dayandırdı, hətta əks-hücuma keçib bir sıra əraziləri işğaldan azad etdi.

1994-cü il yanvarın 5-də müvəffəqiyyətli əməliyyatlar nəticəsində Füzuli rayonunda Horadiz qəsəbəsi, 22 kənd, Cəbrayıl rayonu ərazisinin bir hissəsi, Kəlbəcər rayonunun 12 yaşayış məntəqəsi düşmən işğalından azad olundu. Azərbaycan Prezidenti Heydər Əliyevin uğurlu diplomatiyası, milli ordunun yaradılması və güclənməsi nəticəsində düşmən və onun havadarları münaqişənin perspektivsizliyini dərk etdilər və 1994-cü il may ayının 12-də atəşkəsə nail olundu.

Ümummilli lider Heydər Əliyev ölkədə ali rəhbərliyə qayıtdıqdan sonrakı ilk illərdə xarici düşmənlərin və daxili müxalif qüvvələrin qeyri-sabitlik yaratmaq, dövlət çevrilişləri etmək və terror törətmək cəhdləri, Ermənistanın təcavüzünü dayandırmaq zərurəti daha çox səy və qüvvə tələb etdiyinə, dağıdıcı proseslər geniş yayıldığına görə iqtisadi böhranı aradan qaldırmaq sonrakı mərhələdə mümkün olmuşdu. Ulu öndər tez bir zamanda dövlət intizamını gücləndirib, siyasi sabitliyin yaranmasına nail oldu və iqtisadi tənəzzülün qarşısını almaq üçün ciddi tədbirlər görməyə başladı.

Həyata keçirilən tədbirlər nəticəsində iqtisadi əlaqələr liberallaşdırıldı, xarici ticarət sərbəstləşdirildi, ixrac vergisi ləğv olundu, milli valyuta – manat respublika ərazisində yeganə ödəniş vasitəsi elan edildi, büdcə kəsirinin artmasına yol verilmədi, inflyasiyanın qarşısı alındı, vergi sistemi təkmilləşdirildi, gömrük rüsumları endirildi.

Ulu öndər iqtisadi inkişafda iqtisadi islahatlara xüsusi əhəmiyyət verirdi. Əsaslı islahatların aqrar sahədə də gerçəkləşdirilməsi nəticəsində 1996--2002-ci illərdə kənd təsərrüfatında əlavə dəyər 40,3 faiz artdı. Azərbaycanda 1989-cu ildən ötən dövr ərzində ilk dəfə olaraq 1996-cı ildə iqtisadiyyatda dirçəliş baş verdi və əhalinin pul gəlirlərinin artım səviyyəsi qiymətlərin artım səviyyəsini üstələdi. Ulu öndərin Azərbaycana ikinci dəfə rəhbərliyinin 10 ilində ÜDM istehsalı o vaxtın qiymətləri ilə 22,3 dəfə artaraq 157,1 milyard manatdan 35,1 trilyon manata çatdı. Qeyd olunan illərdə respublikamızda 3 minə qədər yeni sənaye müəssisəsi açıldı və 2003-cü ilin əvvəlində onların sayı 5202-yə çatdı.

Ölkə iqtisadiyyatının dirçəldilməsi və inkişaf etdirilməsi üçün xarici investisiyalar cəlb etmək olduqca vacib idi. Keçirilən beynəlxalq konfranslarda Prezident Heydər Əliyevin imkanlı xarici investorları respublikaya cəsarətlə vəsait qoymağa şəxsən dəvət etməsi səmərəli oldu.

Azərbaycan Respublikası iqtisadiyyatının böhrandan çıxarılması və inkişaf etdirilməsində neft sənayesinin dirçəldilməsi, müasir texnologiyalar əsasında yenidən qurulması mühüm əhəmiyyət kəsb edirdi. Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycanın yeni neft strategiyası hazırlandı və uğurla həyata keçirilməyə başlandı. 1994-cü il sentyabrın 20-də dünyanın 7 ölkəsinin (Azərbaycan, ABŞ, Böyük Britaniya, Norveç, Səudiyyə Ərəbistanı, Rusiya, Türkiyə) 11 neft şirkəti ilə Azərbaycan Dövlət Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" yataqlarının və "Günəşli" yatağının bir hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay bölgüsü haqqında 30 illik saziş imzalandı. Bu müqavilə dünyada "Əsrin müqaviləsi" adı ilə məşhurlaşdı.

"Əsrin müqaviləsi"nin imzalanmasına həsr olunmuş təntənəli mərasimdə ümummilli lider Heydər Əliyev demişdir: "Biz bu müqaviləni imzalamaqla Azərbaycan Respublikası ilə dünyanın inkişaf etmiş dövlətləri, onların ən böyük şirkətləri arasında əlaqələr yaradır, Azərbaycan iqtisadiyyatının dünya iqtisadiyyatına, azad bazar iqtisadiyyatına qoşulması üçün əsas yaradırıq. Biz bu müqaviləni imzalamaqla dünyaya bir daha nümayiş etdirdik ki, Azərbaycan Respublikası demokratik və hüquqi dövlətdir. Biz bu müqaviləni imzalamaqla xarici ölkələrdən Azərbaycana investisiya qoyulması üçün böyük yol açırıq, digər şirkətlərin də Azərbaycanda fəaliyyət göstərməsi üçün zəmin yaradırıq".

"Əsrin müqaviləsi" imzalandıqdan sonra Azərbaycan Respublikası qarşısında duran ən böyük problemlərdən biri neftin dünya bazarlarına çıxarılması məsələsi idi. İlk növbədə, milli mənafeləri ön plana çəkən ümummilli lider Heydər Əliyev Azərbaycan neftinin xarici bazarlara çıxarılması işində çoxşaxəli neft kəmərlərinin çəkilməsinə üstünlük verdi. Heydər Əliyevin birbaşa nəzarəti və himayəsi altında 1997-ci il noyabrın 7-də "Çıraq" platformasından ilk neft hasil edildi. 1997-ci ildə müqavilə nefti Bakı–Novorossiysk və 1999-cu ildə isə Bakı–Supsa kəməri ilə Qara dənizə çıxarıldı. 2002-ci ildə isə əfsanəvi Bakı–Tbilisi—Ceyhan neft kəmərinin təməli qoyuldu.

"Əsrin müqaviləsi" sonradan dünyanın 19 ölkəsinin 41 neft şirkəti ilə 30-dək sazişin imzalanması ilə davam etdirildi. "Əsrin müqaviləsi" həm karbohidrogen ehtiyatlarınının miqdarına, həm də qoyulan sərmayənin həcminə görə dünyada bağlanan ən iri sazişlərdən biridir. Bu sazişlərin əsasında Heydər Əliyev şəxsiyyətinə dərin inam dayanırdı. Azərbaycan iqtisadiyyatının hərəkətverici qüvvəsinə çevrilən bu müqavilənin mahiyyətində, heç şübhəsiz, Heydər Əliyev dühasının təntənəsi dururdu. Ulu öndərin özünəməxsus siyasi müdrikliklə seçdiyi bu yol həm də gənc Azərbaycan dövlətinin geostrateji mövqelərinin möhkəmlənməsinə yönəlmişdi.

Həyata keçirilən tədbirlər sayəsində respublikanın neft sənayesi dirçəldi və sürətlə inkişaf etməyə başladı. 2002-ci ildə ölkədə 15,3 milyon ton neft hasil edildi. Neft müqaviləsi gəlir gətirməyə başladı. "Əsrin müqaviləsi" ilə ölkəmizin neft və qeyri-neft sahələrinə xarici investisiyalar ilbəil artdı. Belə ki, respublika iqtisadiyyatına 1993-cü ildə 15 milyon, 1995-ci ildə 375 milyon, 1996--2002-ci illərdə 9 milyard (qeyri-neft sektoruna 3 milyard) dollar xarici investisiya qoyuldu. Xarici sərmayənin 90 faizi istehsal sahələrinin inkişafına yönəldilmişdi.

Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan müstəqil Azərbaycan Respublikasının Konstitusiyası 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi yolu ilə qəbul edildi. Konstitusiya demokratiya və azad bazar yolunu seçmiş Azərbaycanda siyasi sistemin modernləşdirilməsinə, vətəndaşların hüquq və vəzifələrinin sərhədlərinin müəyyənləşdirilməsinə, hakimiyyət bölgüsü prinsipinin tam şəkildə bərqərar olmasına imkan yaratdı. Azərbaycan Respublikasının Konstitusiyası ölkədə demokratik dövlət və iqtisadiyyat, vətəndaş cəmiyyəti quruculuğuna hüquqi əsas yaratdı.

Demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu ideyasının təməl prinsiplərini özündə ehtiva edən bu Konstitusiya ictimai münasibətlərin sivil şəkildə tənzimlənməsinə, dövlətlə vətəndaş arasında qarşılıqlı məsuliyyət və vəzifələrin müəyyənləşdirilməsinə mükəmməl mexanizmlər yaratdı. 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikası parlamentinə majoritar və proporsional sistemlə ilk seçkilər keçirildi. 2000-ci ilin noyabrında yeni parlament seçkiləri təşkil olundu. Yeni Konstitusiyanın tələbinə görə, ölkədə demokratik cəmiyyətin mühüm elementi kimi yerli özünüidarə– seçkili bələdiyyələr sistemi yaradıldı.

Əhalinin sosial müdafiəsi tədbirləri və islahatların sosial yönümü ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq həyata keçirilən iqtisadi siyasətdə mərkəzi yer tuturdu. Prezident Heydər Əliyevin rəhbərliyi altında bu sahədə müntəzəm iş aparılırdı. 1994-cü il iyulun 24-də "Əhalinin sosial müdafiəsi haqqında" qanun qəbul edildi. İşçilərin orta aylıq nominal əmək haqqı xeyli artırıldı. 1994-1998-ci illərdə orta aylıq əmək haqqı 184,4 min manat, 2002-ci ildə isə 315 min manat idi.

İqtisadi tənəzzülün aradan qaldırılması və inkişafa yol açılması nəticəsində dövlət büdcəsi 1994-cü ildə cəmi 682 milyard manat (o dövrün qiymətləri ilə) idisə, 2002-ci ildə 6–7 dəfə artmışdı. 2002-ci ildə adambaşına pul gəliri 2,6 milyon manat olmuşdu, halbuki 1995-ci ildə bu, 886 min manat idi. 1995–2000-ci illərdə dövlət büdcəsindən sosial təyinatlı xərclər üç dəfəyə qədər artmışdı. Ölkənin qarşılaşdığı mühüm problemlərdən biri də qaçqınların və məcburi köçkünlərin yerləşdirilməsi, onların sosial vəziyyətinin yaxşılaşdırılması idi. Ulu öndər hakimiyyətinin ilk günlərindən bu problemlə ciddi məşğul olur, ona böyük diqqət yetirirdi. Böyük iqtisadi çətinliklərə baxmayaraq qaçqın və köçkünlərin həyat şəraitinin yaxşılaşdırılması, sosial müdafiəsi məsələləri Prezident Heydər Əliyevin daim diqqət mərkəzində idi. Qaçqınların və məcburi köçkünlərin sosial müdafiəsini təmin etmək üçün xüsusi proqram qəbul olundu və həyata keçirildi.

Həyatın bütün sahələrində səmərəli və məqsədyönlü fəaliyyətlə yanaşı, Heydər Əliyev ölkədə təhsilin keyfiyyətinin artırılmasına, onun səviyyəsinin yüksəlməsinə böyük diqqət yetirirdi. Böyüməkdə olan nəslin təlim-tərbiyəsi həmişə uzaqgörən liderin dövlət proqramının əsas müddəalarından biri olub. 1998-ci ildə Prezident Heydər Əliyevin sərəncamı ilə Təhsil Sahəsində İslahatlar üzrə Dövlət Komissiyası təşkil olundu və Təhsil İslahatları Proqramı hazırlandı. Respublikada orta təhsillə yanaşı, məktəbəqədər, ali və digər təhsil sahələrinə diqqət artırıldı, onların hüquqi bazaları təkmilləşdirildi.

Ümummilli lider Heydər Əliyevin ən böyük xidmətlərindən biri də onun Azərbaycan elminə daim hamilik etməsi, keçən əsrin 70-ci illərində Elmlər Akademiyasına dünya şöhrəti qazandırması, 90-cı illərin əvvəllərində isə onun bağlanılmasının qarşısını alıb yenidən dirçəldilməsinə nail olmasıdır. Qüdrətli dövlət xadimi ölkəmizdə elmin inkişafı, elmi-texniki potensialın qorunub saxlanılması, elm və təhsil sahəsində yüksək ixtisaslı kadrların hazırlanması, onlara qayğı göstərilməsi, cəmiyyətdə elmi işçilərin nüfuzunun artırılması kimi sahələrdə bir sıra mühüm qərarlar qəbul etmişdir.

Ulu öndər Heydər Əliyev müstəqil Azərbaycan Respublikasının daxili siyasətini uğurla həyata keçirdiyi kimi, xarici siyasətini də müdrikliklə apardı. Azərbaycan Prezidentinin milli maraqlara söykənən müdrik və səmərəli xarici siyasət xətti nəticəsində respublikamızla dünyanın ən inkişaf etmiş ölkələri arasında bərabər hüquqlu dostluq və əməkdaşlıq münasibətləri yaradıldı. Heydər Əliyev diplomatiyası beynəlxalq münasibətlər sistemində yaranmış dəyişikliklər, dövlətlərin Cənubi Qafqaz regionundakı siyasi və iqtisadi maraqlarının Azərbaycanın maraqları ilə mümkün qədər uzlaşdırılması kimi praqmatik əsaslar üzərində quruldu.

Heydər Əliyev müstəqil Azərbaycanın rəhbəri kimi 68 ölkənin prezidenti, hökumət başçısı ilə görüşlər keçirmiş, üzv olduğu beynəlxalq təşkilatların sessiyalarında, zirvə toplantılarında Azərbaycanın milli maraqlarını qətiyyətlə müdafiə etmişdir. Ulu öndər müdrik diplomatik addımları ilə ən güclü dövlətlərin başçılarına belə təsir edə bilirdi. Belə faktlar Ermənistan--Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan müzakirələrdə kifayət qədərdir. Xarici siyasət kursunu ölkənin ərazi bütövlüyü prinsipi əsasında mükəmməl qaydada aparan Heydər Əliyev Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun daim artması prosesinə şərait yaratdı.

Hazırda Azərbaycan Cənubi Qafqazın geosiyasi dayaq nöqtəsi kimi qəbul edilir. Bu isə birbaşa görkəmli siyasət və dövlət xadimi Heydər Əliyevin uğurlu xarici siyasət kursu yaratması sayəsində mümkün olub. Ulu öndər tərəfindən müəyyən edilmiş sosial-iqtisadi inkişaf strategiyası və siyasi kursunu Prezident İlham Əliyev uğurla və yaradıcılıqla davam etdirir. Dövlət başçısı dəfələrlə vurğulayıb ki, o, ulu öndərin əsasını qoyduğu siyasi kursu həyata keçirir, zamanın tələbinə uyğun inkişaf etdirir. Keçən 15 il ərzində Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artıb. Qeyri-neft sektorunda artım 2,8, sənaye istehsalında 2,6, kənd təsərrüfatında isə 1,7 dəfə olub.

Bu müddətdə ixracat 4,1 dəfə artıb. Azərbaycanın valyuta ehtiyatları 50 milyard dollara çatıb. 2003-2018-ci illərdə ölkə iqtisadiyyatına qoyulan sərmayənin həcmi 250 milyard dollar təşkil edir. Respublikamızda bir sıra uğurlu infrastruktur layihələri gerçəkləşdirilib, 2 milyona yaxın yeni iş yeri açılıb, Ümumi Daxili Məhsul real olaraq 3,3 dəfə artıb, yoxsulluq 5,1 faiz səviyyəsinə düşüb, işsizlik 1,6 dəfə azalıb. Dövlət büdcəsi dəfələrlə artıb, nəticədə əhalinin sosial-rifah halı yaxşılaşıb, Azərbaycan dünyada islahatçı ölkə kimi tanınıb. 2019-cu ildə sosial sahədə həyata keçirilən tədbirlər qeyd olunan sahələrdə müsbət yöndə dəyişiklikləri artırıb.

Göründüyü kimi, xalqımız 1993 və 1998-ci illərdə öz taleyini ulu öndər, qüdrətli dövlət xadimi Heydər Əliyevə etibar etməklə gələcək uğurlarına və firavanlığına mötəbər zəmin yaratdı.